

# Vergi orqanlarının inzibati xətaların qarşısını almaq sahəsində fəaliyyətinin bəzi məsələləri

**Xanoğlan ŞIXƏLİYEV,**
*Azərbaycan Respublikası Baş Prokurorluğunun Ədliyyə və Vergilər nazirlikləri, Dövlət Gömrük Komitəsinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuror-metodisti, baş ədliyyə müşaviri*

***Bu gün hər kəsin çox böyük məmnunluq və qürur hissi ilə qeyd etməyə haqqı vardır ki, Ümummilli Liderimiz, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin demokratik təsisatların yaradılması işində həm də dünyanın ən çox inkişaf etmiş dövlətlərinin təcrübəsinə istinad etməsi demokratik prosesləri, hüquqi, iqtisadi və digər sahələrdəki islahatları sürətləndirmiş, son 17 il ərzində Respublikamız dünyanın inkişaf etmiş lider dövlətlərinin əsrlər ərzində keçdiyi yollara bərabər uğurlu inkişaf yolu keçmişdir.***

***Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı İlham Əliyev tərəfindən ölkə iqtisadiyyatının dinamik inkişafı təmin olunmuş, Azərbaycan müvəffəqiyyətli inkişafına görə dünyanın lider dövlətləri sırasına çıxmışdır.***

Bu gün hər kəsin çox böyük məmnunluq və qürur hissi ilə qeyd etməyə haqqı vardır ki, Ümummilli Liderimiz, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin demokratik təsisatların yaradılması işində həm də dünyanın ən çox inkişaf etmiş dövlətlərinin təcrübəsinə istinad etməsi demokratik prosesləri, hüquqi, iqtisadi və digər sahələrdəki islahatları sürətləndirmiş, son 17 il ərzində Respublikamız dünyanın inkişaf etmiş lider dövlətlərinin əsrlər ərzində keçdiyi yollara bərabər uğurlu inkişaf yolu keçmişdir.

Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı İlham Əliyev tərəfindən ölkə iqtisadiyyatının dinamik inkişafı təmin olunmuş, Azərbaycan müvəffəqiyyətli inkişafına görə dünyanın lider dövlətləri sırasına çıxmışdır.

Bu gün ölkəmizdə bu uğurlu işlərdə və dinamik inkişafda layiqli payı olan Vergilər Nazirliyi tərəfindən, onların səlahiyyətlərinə aid edilmiş cinayət və digər hüquqpozma hallarına, xüsusilə də vergiləri ödəməkdən yayınma, qanunsuz sahibkarlıq və iqtisadi fəaliyyət sahəsində olan digər cinayətlərə qarşı məqsədyönlü, ardıcıl və səmərəli mübarizə aparılır. Ölkədə aparılan müvəffəqiyyətli hüquqi islahatların nəticəsi olaraq vergi hüquqpozmaları ilə uğurlu mübarizə aparalması və belə pozuntuların qarşısının vaxtında alınması üçün təkmil qanunvericilik bazası və mobil qurumlar vardır.

Ölkənin iqtisadi və sosial inkişafının əsasını təşkil edən dövlət büdcəsi gəlirlərinin formalaşmasında vergi xidməti orqanlarının rolu durmadan artır. Bu xidmət tərəfindən ölkə iqti-



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

sadiyyatında bazar münasibətlərinə keçidlə əlaqədar, bu münasibətlərin tənzimlənməsində və dövlət büdcəsinin mədaxil hissəsinin formalaşmasında vergilərin rolunun artması ilə bağlı olaraq, yeni iqtisadi münasibətlər şəraitində prinsipial cəhətcə yeni vergi siyasətinin həyata keçirilməsi, dövlət büdcəsinə çatası vergilərin və digər icbari ödənişlərin tam və vaxtında səfərbər olunması, hüquqi və fiziki şəxslər tərəfindən vergi qanunvericiliyinə əməl olunması üçün bəyənilən və müvəffəqiyyətli tədbirlər həyata keçirilir.

Məlum olduğu kimi Azərbaycan Respublikasının vergi qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının Vergi Məcəlləsindən və onlara uyğun qəbul edilmiş Azərbaycan Respublikasının qanunvericilik aktlarından ibarətdir. Bu qanunvericilik aktları sisteminə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi də daxildir.

İnzibati Xətalar Məcəlləsinin 2-ci maddəsinə əsasən Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin vəzifələri insan və vətəndaş hüquqlarını və azadlıqlarını, onların sağlamlığını, əhalinin sanitariya-epidemioloji salamatlığını, ictimai mənəviyyatı, mülkiyyəti, şəxslərin iqtisadi maraqlarını, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, idarəçilik qaydalarını qorumaqdan, qanunçuluğu möhkəmləndirməkdən və inzibati xətaların qarşısını almaqdan ibarətdir.

«Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 29 avqust 2000-ci il tarixli Fərmanının 3.29-cu bəndinə uyğun olaraq İnzibati Xətalar Məcəlləsinin 222.1-ci, 222.2-ci, 246-cı, 247-ci, 248-ci, 249-cu, 252-ci və 325-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Vergilər Nazirliyi baxır.

Vergi Məcəlləsinin 32.1-ci maddəsinə əsasən vergi orqanları vergilərin tam və vaxtında yığılmasını təmin etmək məqsədilə vergi nəzarətini həyata keçirirlər. Vergi nəzarəti vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotuna, habelə vergi qanunvericiliyinə riayət olunmasına vahid nəzarət sistemidir.

Vergi nəzarətini Vergi Məcəlləsində və Azərbaycan Respublikasının Gömrük Məcəlləsində nəzərdə tutulmuş hallarda və qaydada icra hakimiyyəti orqanı olan vergi və gömrük orqanları həyata keçirirlər.

Vergi orqanları tərəfindən operativ vergi nəzarətinin, həmçinin kameral və səyyar vergi yoxlamalarının həyata keçirilməsi prosesində aşkar edilmiş pozuntular əsasən vergi, inzibati hüquq pozuntularından və cinayət faktlarından ibarətdir.

Vergi Məcəlləsinin 58-ci maddəsi vergilərin azaldılmasına və digər vergi hüquqpozmalarına görə maliyyə sanksiyalarının tətbiqi nəzərdə tutulmuşdur. Həmin Məcəllənin 58.1-ci maddəsində nəzərdə tutulmuş əmələ görə həm vergi, həm də Azərbaycan Respublikaksı CM-nin 213-cü maddəsinin qeydində nəzərdə tutulmuş məbləğ yarandıqda isə cinayət məsuliyyəti yaranır. Bu zaman maliyyə sanksiyasının tətbiqi məcburidir, lakin bu konkret təqsirkar şəxsi

cinayət məsuliyyətindən azad etmir. Məcəllənin 58.2-58.9 və 58.11-ci maddələrində nəzərdə tutulmuş hüquq pozuntularına görə isə vergi məsuliyyəti nəzərdə tutulmaqla konkret təqsirkar şəxslərə maliyyə sanksiyası tətbiq edilir.

Eyni zamanda Məcəllənin 58.10-cu maddəsində nəzərdə tutulmuşdur ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) bağlamadan işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaratdığına görə işəgötürənə hər bir belə şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Bununla yanaşı, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 53-cü maddəsində bu pozuntu əmək qanunvericiliyinin pozulması hesab edilmişdir. Həmin Məcəllənin 53.1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsini (kontraktı) bağlamadan işəgötürülənlər tərəfindən fiziki şəxsin hər hansı işin (xidmətin) yerinə yetirilməsinə cəlb edilməsinə görə vəzifəli şəxslər üç min manatdan beş min manatadək miqdarda, hüquqi şəxslər isə iyirmi min manatdan iyirmi beş min manatadək miqdarda cərimə edilirlər.

Vergi Məcəlləsinin 53.1-ci maddəsinə əsasən bu Məcəllə ilə müəyyən edilmiş vergi ödəyiciləri, vergi agentləri və onların nümayəndələri, habelə vergi orqanlarının vəzifəli şəxsləri vergi qanunvericiliyinin pozulmasına görə bu Məcəllə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi və Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Həmin Məcəllənin 49.6-cı maddəsinə əsasən vergi orqanları tərəfindən aşkar edilmiş vergi qanunvericiliyinin pozulmasına görə vergi ödəyicisi inzibati məsuliyyətə cəlb edilməli olduqda, vergi yoxlamasını keçirən vergi orqanının səlahiyyətli şəxsi inzibati hüquq pozuntusu haqqında ayrıca protokol tərtib edir. Bu hüquq pozuntuları haqqında işlərə baxılma və inzibati tənbeh tədbirlərinin həmin pozuntuların edilməsində təqsirli olan vergi ödəyicisinin vəzifəli şəxslərinə və vergi ödəyicisi - fərdi sahibkara münasibətdə tətbiq edilməsi vergi orqanları tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun həyata keçirilir.

Vergi Məcəlləsinin 49.3 və 49.6-cı maddələrinin müddəalarında vergi xətaları törətmiş vergi ödəyicilərinə qarşı vergi orqanları tərəfindən tətbiq edilən cərimələr və maliyyə sanksiyalarının hansı ardıcıllıqla tətbiq olunması məlum olmadığına görə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Nazirlər Kabinetinin sorğusuna əsasən 06 avqust 2002-ci il tarixdə «Azərbaycan Respublikası Vergi Məcəlləsinin 49.3 və 49.6-cı maddələrinin şərh edilməsi haqqında» qərar qəbul etmişdir. Həmin qərara əsasən Azərbaycan Respublikası Vergi Məcəlləsinin 49.3 və 49.6-cı maddələrinin tətbiqi zamanı vergi qanunvericiliyinin pozulması ilə əlaqədar eyni əmələ (hərəkət və hərəkətsizliyə) görə yalnız bir dəfə Vergi Məcəlləsi və ya İnzibati Xətalar Məcəlləsi ilə nəzərdə tutulmuş məsuliyyətə cəlb olunmasına yol verilir.

«Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə

məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən həmin Məcəllənin 53-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi baxır.

Göründüyü kimi, eyni pozuntuya görə həm vergi, həm də inzibati məsuliyyət nəzərdə tutulmuş və belə pozuntularların aşkar edilməsi, qarşısının alınması həm vergi orqanlarının, həm də əmək və əhalinin sosial müdafiəsi orqanlarının birbaşa səlahiyyətlərinə aid edilmişdir.

Hüquq nəzəriyyəsində hüquqi məsuliyyət növləri sistemində vergi qanunvericiliyi pozuntularının (vergi xətalarının) törədilməsinə görə xüsusi məsuliyyətin-vergi məsuliyyətinin yeri müəyyənləşdirilməyib. Bir qayda olaraq hesab olunur ki, mülki, intizam, maddi, inzibati və cinayət məsuliyyəti ilə yanaşı, vergi məsuliyyətinin hüquqi məsuliyyətin müstəqil növü kimi ayrıca qeyd olunması üçün əsas yoxdur və o, bir qayda olaraq ya inzibati, ya da mülki məsuliyyət ilə əhatə olunur.

Konstitusiya Məhkəməsinin yuxarıda qeyd edilən qərarında həmçinin qeyd edilmişdir ki, fiziki şəxslərin vergi və digər məsuliyyətlərini fərqləndirmək məsələsi həll edilərkən belə bir prinsipdən çıxış etmək lazımdır ki, bir hüquq münasibəti eyni zamanda həm vergi, həm də qeyri vergi münasibəti kimi tövsif oluna bilməz, həmçinin vergi ödəyicisi törətdiyi əmələ görə həm vergi məsuliyyətinə, həm də digər məsuliyyətə cəlb oluna bilməz. Buna görə də, vergi orqanının üzə çıxardığı əməl vergi ödəyicisi tərəfindən Vergi Məcəlləsinin 57, 58 və 60-cı maddələrində müəyyən olunmuş vergi xətaları çərçivəsində törədildikdə bu əməlin vergi qanunvericiliyinin pozulması ilə bağlı olan vergi hüquq pozuntusu kimi (baxmayaraq ki, onan inzibati xəta ilə oxşarlığı vardır) tövsif olunması Vergi Məcəlləsinin müddəalarına müvafiq olaraq, İnzibati Xətalar Məcəlləsinin 244, 247 və 250-ci maddələrində nəzərdə tutulmuş vergi qanunvericiliyinin pozulması ilə bağlı inzibati xətalar törədildikdə isə həmin Məcəllənin müddəalarına müvafiq olaraq həll olunmalıdır.

Göründüyü kimi, İnzibati Xətalar Məcəlləsinin 53-cü maddəsinin sanksiyası ilə Vergi Məcəlləsinin 50.1.7-ci maddəsi ilə müəyyən edilmiş pozuntuya görə müəyyən edilmiş maliyyə sanksiyası arasında əsaslı fərq vardır. Eyni əməl həm vergi, həm də inzibati məsuliyyətə səbəb olur.

Eyni əməl vergi orqanlarının əməkdaşları tərəfindən aşkar edildikdə Vergi Məcəlləsinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aidiyyəti qurumları və digər orqanlar tərəfindən aşkar edildikdə İnzibati Xətalar Məcəlləsinin müddəaları tətbiq olunur.

Bu iki halı, yəni vergi məsuliyyəti ilə inzibati məsuliyyəti fərqləndirən yeganə xüsusiyyət ondan ibarətdir ki, əmək müqaviləsi bağlanmadan işə götürən tərəfindən işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilənlərin sayından asılı olaraq konkret və fərqli vergi məsuliyyəti, bu saydan asılı olmayaraq konkret və fərqli inzibati məsuliyyət müəyyən edilmişdir.

Nəzərə almaq lazımdır ki, eyni əmələ görə həm vergi, həm də inzibati məsuliyyətin nəzərdə tutulması mümkün və normal hal hesab edilsə də, mahiyyətcə eyni olan pozuntuya görə müx-

təlif sanksiyaların tətbiq edilməsi və müxtəlif orqanlar tərəfindən baxılması anlaşılmazlıq yaradır və belə vəziyyət istər-istəməz sui-istifadə hallarına gətirib çıxara bilər. Vergi Məcəlləsinin 57 və 58-ci maddələri ilə müəyyən edilmiş digər bir sıra hallar həm vergi, həm də inzibati məsuliyyətə səbəb olur, bir sıra hallar isə yalnız vergi məsuliyyəti yaradır. Bir sıra hallar isə vergi məsuliyyətinin, yəni maliyyə sanksiyasının tətbiqi ilə bərabər cinayət məsuliyyətini istisna etmir. Bu hallarda maliyyə sanksiyasının tətbiqi mütləqdir.

Məsələn, Vergi Məcəlləsinin 58.7-ci maddəsi ilə müəyyən edilən nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına görə yalnız vergi məsuliyyəti müəyyən edilməklə il ərzində belə hallara birinci dəfə yol verildikdə 400 manat, ikinci dəfə yol verildikdə 800 manat, üç və daha çox dəfə yol verildikdə 1200 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. Belə hüquqpozmalara görə yalnız vergi məsuliyyətinin müəyyən edilməsi təqdirəlayiqdir. Bu vergi orqanlarının və konkert hüquq pozuntusuna yol vermiş şəxslərin də işini asanlaşdırmaqla, müəyyən lüzumsuz hüquqi prosedurlardan azad edir.

Baş Prokurorluq tərəfindən aparılan ümumiləşdirmələr göstərir ki, İnzibati Xətalar Məcəlləsinin 53.1-ci maddəsində nəzərdə tutulmuş əmək qanunvericiliyinin pozulması ilə mübarizə məsələləri əmək və əhalinin sosial müdafiəsi orqanları tərəfindən vergi orqanları ilə səmərəli səviyyədə koordinasiya edilmir.

Nəzərə almaq lazımdır ki, bu əməl əsasən vergiləri və digər ödənişləri ödəməkdən yayınmaq məqsədilə törədilir. Ona görə də «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 29 avqust 2000-ci il tarixli Fərmanında müvafiq dəyişiklik aparılmaqla belə inzibati xətalara dair işlərə baxılmasının vergi orqanlarının səlahiyyətlərinə aid edilməsi, eyni zamanda Vergi Məcəlləsinin 58.10-cu maddəsinin müddəalarının İXM-nin 53.1-ci maddəsinin sanksiyasının müddəalarına uyğunlaşdırmaq qanunauyğun olardı.

Eyni zamanda, operativ vergi nəzarətinin həyata keçirilməsi ilə belə pozuntunun aşkara çıxarılması səyyar vergi yoxlamasının keçirilməsinə əsas verir. Belə olan halda əmək və əhalinin sosial müdafiəsi orqanları tərəfindən aparılan yoxlamalar zamanı İnzibati Xətalar Məcəlləsinin 53.1-ci maddəsində nəzərdə tutulmuş inzibati hüquq pozuntusuna dair xətalar aşkar edildikdə bu haqda olan materiallar vergi orqanlarına göndərilməsi də təmin edilmiş və həmin məlumat üzrə müvafiq araşdırma aparılmaqla vergiləri ödəməkdən yayınma faktları da aşkar olunmuş və yayındırılmış vergilər dövlət büdcəsinə bərpa edilməklə hüquq pozuntusunun qarşısı alınmış olardı.

Hesab edirik ki, bu məsələnin Vergilər Nazirliyi tərəfindən Vergi Məcəlləsinin 2.8-ci maddəsinə uyğun olaraq həll olunması bu ikili yanaşmanı aradan qaldırmaqla qanunvericiliyin daha da təkmilləşdirilməsini təmin edər, vergi hüquqpozuntuları ilə mübarizənin səmərəliliyini daha da artırardı.

*X.Шыхалиев*

**Некоторые вопросы деятельности налоговых органов в области предотвращение административных правонарушений**

*Резюме*

В статье исследуется характер правонарушений выявленных в процессе налоговой проверки и поясняется законодательные порядки по этой области. Отмечается что, в юриспруденции не определена особая ответственность – налоговая ответственность за правонарушение по налоговое законодательство. Автор считает что, целесообразно была бы вхождение рассматривания дел по правонарушениям в области налогов в полномочие налоговых органов.

*X.Shixaliyev*

**Some points of tax bodies' activity in the prevention of administrative infringements.**

*Summary*

In the article it is researched the feature of infringements in tax control, and is explained the legislative procedures. It is noted? That in jurisprudence doesn't mention special responsibilities, such as tax responsibility for committing of tax infringements. The author considers it would be useful to give the file on tax crime to authority of tax bodies.

***Ədəbiyyat***

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2010.
2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, Bakı, 2010.
3. Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Bakı, 2010.
4. Azərbaycan Respublikası Konstitusiyası Məhkəməsinin qərarlarının toplusu, Bakı, 2008.

♦